

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 144 (21.296)

25 iyul 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də İsrail Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rafael Harpazı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Rafael Harpazın ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan ilə İsrail arasında əlaqələrin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirən dövlətimizin başçısı gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Səfir Prezident İlham Əliyevə minnətdarlığını bildirib və qeyd edib ki, Azərbaycan ilə bağlı xoş xatirələr onun qəlbində daim yaşayacaq.

Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə edilib, əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



## Muxtar respublikada cari ilin ötən dövründə də ictimai asayiş təmin olunub



*Cari ilin birinci yarısında muxtar respublikamızın ictimai-siyasi həyatı əlamətdar hadisələrlə zəngin olub. Muxtar respublikada davam etdirilən quruculuq işlərinin başlıca təminatlarından olan sabitlik etibarlı qorunaraq daha da möhkəmləndirilib. Şəxsi heyətin dövlətə, andа sədaqəti və fədakar xidməti yüksək qiymətləndirilib, əməkdaşlar müxtəlif dövlət mükafatları ilə təltif ediliblər. Bütün bunlar muxtar respublikada polis orqanlarının fəaliyyətinə verilən yüksək qiymətin, göstərilən diqqət və qayğının növbəti təzahürüdür.*

Bu fikirlər iyulun 24-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində keçirilən kollegiya iclasında Daxili İşlər naziri, polis general-leytenantı Əhməd Əhmədov tərəfindən səsləndirilib.

Hesabat dövründə cinayətkarlığın dinamikasında və strukturunda müsbət təmayüllər müşahidə edildiyini, kriminogen durumun nəzarətdə saxlanıldığını tədbir iştirakçılarının diqqətinə çatdıran nazir bildirib ki, şəxsi heyətin yüksək tələblərə cavab verən şəraitdə xidməti təmin edilib, peşə hazırlığı artırılıb, maddi-texniki baza möhkəmləndirilib, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi imkanları genişləndirilib, infrastrukturun təkmilləşdirilməsi ilə bağlı görülən işlər sürətləndirilib.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Təşkilat İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Əli Tağıyevin məruzəsi dinlənilib. Məruzəçi qeyd edib ki, 2015-ci ilin birinci yarısında daxili işlər və prokurorluq orqanları üzrə cəmi 5 cinayət hadisəsi qeydə alınıb. Bu isə ötən illə müqayisədə 10 cinayət hadisəsinin az olması deməkdir. Cinayətlərin strukturunda ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər ötən illə müqayisədə 6-ya qarşı 2 olmaqla 66,6 faiz azalıb, iqtisadi sahədə olan cinayətlər 3-ə qarşı 3 olmaqla sabit qalıb, şəxsiyyət və dövlət hakimiyyəti əleyhinə olan cinayətlərlə bağlı heç bir fakt aşkar edilməyib. Yüksək peşəkarlıqla həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri nəticəsində cinayətlərin açılması 100 faiz təmin edilib. Muxtar respublikada təqsirləndirilən şəxslərin axtarışı işinin nəticəsi yaxşılaşmaqla istintaqdan və məhkəmədən yayınan 4 nəfərdən ikisinin yeri müəyyənləşdirilərək məsuliyyətə cəlb olunub. Narkomaniyaya qarşı mübarizədə həyata keçirilən tədbirlər nəticəsində xeyli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb. İstintaq və təhqiqat qurumu əməkdaşlarının icraatında 7 cinayət işi olub. Cinayət işlərindən 2-si ittiham aktı ilə məhkəməyə göndərilib. 2 cinayət işi aidiyyəti üzrə muxtar respublika Hərbi Prokurorluğuna göndərilib. Bir cinayət işinin icraatı dayandırılıb, 2 cinayət işi üzrə ibtidai istintaq davam etdirilib. İcraatına xitam verilən və məhkəmə və prokurorluq orqanları tərəfindən əlavə istintaqa qaytarılan cinayət işləri olmayıb. Hesabat dövründə avtomobillərin texniki vəziyyətinə xüsusi fikir verilərək xeyli sayda nasaz avtomaşının istismarına qadağa qoyulub, aşkar olunan 11 mindən artıq yol hərəkəti əleyhinə olan inzibati xəta üzrə qanunauyğun tədbirlər görülüb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qəzaların sayı 8-ə qarşı 3 olmaqla 62,5 faiz azalıb. Qanunsuz saxlanılan silahların yığılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilib, vətəndaşlar tərəfindən 99 ədəd odlu silah, xeyli sayda döyüş sursatı və hərbi ləvazimat könüllü olaraq polis orqanlarına təhvil verilib. Vahid Məlumat Axtarış Sistemi vasitəsilə 13 minə yaxın sorğu cavablandırılıb. Bütövlükdə, müxtəlif inzibati xətalara görə muxtar respublika üzrə 12789 protokol tərtib olunub və qanunauyğun tədbir görülüb. Elektrik enerjisindən və təbii qazdan qanunsuz istifadənin qarşısının alınması, həmçinin təbiəti mühafizə istiqamətində həyata keçirilən tədbirlər nəticəsində 31 fakt aşkarlanıb və 1240 manat məbləğində cərimə tətbiq olunub. Fevralın 9-da 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə Ali Məclisin Sədri tərəfindən verilən tapşırıqların icrası ilə əlaqədar olaraq, mart ayından etibarən vətəndaşlara səyyar xidmət göstərilməsinə başlanılıb. İyul ayının 1-i tarixinə 2961 müraciət qəbul olunaraq icra edilib.

Məruzə ətrafında çıxışlarda nazirliyin ayrı-ayrı struktur qurumlarının rəisləri görülmüş işlər barədə məlumat veriblər, mövcud nöqsanların aradan qaldırılması üçün qarşıda duran vəzifələrdən danışıblar.

İclasa muxtar respublika Daxili İşlər naziri, polis general-leytenantı Əhməd Əhmədov yekun vurub.

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilib

*İyul ayının 24-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin muxtar respublika məhkəmələrinin 2015-ci ilin birinci yarısındakı fəaliyyətinin yekunlarına həsr olunmuş iclası keçirilib.*

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan məhkəmə-hüquq islahatlarının bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini bildirərək ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlərdən söhbət açıb.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri muxtar respublika məhkəmələrinin 2015-ci ilin birinci yarısındakı fəaliyyətinin yekunları ilə bağlı məruzə edərək məhkəmələr tərəfindən vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verib.

Qeyd edilib ki, 2015-ci ilin birinci yarısında Ali Məhkəməyə daxil olan ərizə və şikayətlər vaxtında öyrənilərək nəticələri barədə vətəndaşlara qanunla müəyyən olunmuş qaydada cavab verilib, müraciət etmiş vətəndaşların şikayətləri araşdırılıb həll olunub.



Ramiz Süleymanov Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində görülən işlərlə əlaqədar məlumat verərək məhkəmənin rəsmi internet saytının yenidən qurulmasının vətəndaşların hüquqlarının müdafiəsi və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasındakı rolundan, Ali Məhkəmənin nəşri olan bülletenin növbəti sayının işıq üzü görməsi və bülletenin bu sayının məhkəmənin rəsmi internet səhifəsində yayımlanmasından bəhs edib, həyata keçirilən tədbirlərin insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldiyini bildirib.

Vurğulanıb ki, ötən illərdə olduğu kimi, cari ilin müvafiq dövründə də hakimlərin peşə bacarıqlarının artırılması, hakimlər tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı olaraq Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, onların hüquqi biliklərinin daha da möhkəmləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilib.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin cari ilin birinci yarısında gördükləri işlərə dair məlumatları dinlənilib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov iclasa yekun vuraraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi fəaliyyətini bundan sonra da qanunvericiliyin tələbləri səviyyəsində quraraq ədalət mühakiməsini obyektiv, tam və qərəzsiz şəkildə həyata keçirəcək, vətəndaşların hüquqi maarifləndirilməsi işinin daha da gücləndirilməsi və əhalinin hüquq xidmətlərinə olan tələbatının ödənilməsi üçün səylərini davam etdirəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti**

## Muxtar respublikada neft və maye qaz məhsullarına olan tələbat ödənilib

*Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında qarşıya qoyulan vəzifələr və 2015-ci ilin birinci yarısının yekunları ilə bağlı yığıncaq keçirilib.*



Yığıncağı müəssisənin direktoru Behruz Əzimov açaraq məruzə ilə çıxış edib. Qeyd olunub ki, 2015-ci ildə muxtar respublika əhalisinin, idarə, müəssisə və təşkilatların neft və maye qaz məhsullarına olan tələbatını təmin etmək məqsədilə Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi bir sıra məqsədyönlü tədbirlər həyata keçirib, Azərbaycan Dövlət Neft Şirkəti ilə 36 min ton A-92 benzini, 60 min ton dizel yanacağı, 17 min ton bitum, 7 min ton mazut, 1100 ton müxtəlif yağlar, 5000 ton maye qaz alınması üçün müqavilə bağlanılıb. Bağlanılan müqaviləyə əsasən, 2015-ci ilin ilk 6 ayı ərzində adıçəkilən təşkilatdan 15 min 12,9 ton A-92 benzini, 24 min 489,5 ton dizel yanacağı, 3957,2 ton bitum, 102,4 ton müxtəlif yağlar, 135 ton maye qaz gətirilib.

Müəssisə 2015-ci ilin ilk 6 ayında ümumi dövriyyəsi 29669,3 min manat olan 44069,6 ton müxtəlif növ neft məhsulları satıb ki, bu da 15 min 531,6 ton avtobenzin, 25 min 20,6 ton dizel yanacağı, 3350,8 ton bitum, 64 ton maye qaz, 102,4 ton müxtəlif növ yağlardan ibarətdir. Birinci yarımil ərzində müəssisə satışdan 203,9 min manat mənfəət əldə edib.

Bildirilib ki, bəhs olunan dövrdə boruların, nasosların, elektrik avadanlıqlarının, müəssisəyə yanacaq daşıyan avtomaşınların saz vəziyyətdə olması diqqət mərkəzində saxlanılıb, yanacaq ehtiyatı yaradılıb. Belə ki, 2015-ci il iyul ayının 1-nə müəssisənin anbarlarında 1851,5 ton A-92 benzini, 2022 ton dizel yanacağı, 3520 ton mazut, 606,4 ton bitum, 128 ton maye qaz ehtiyatı vardır.

Məruzə ətrafında müzakirələrdə çıxış edən müəssisənin neft anbarının müdiri Mirmehdi Seyidov, maye qaz anbarının müdiri Kazım Rzayev və başqaları qarşıda duran vəzifələrdən danışıblar.

**Xəbərlər şöbəsi**

## Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*İyulun 24-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin cari ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclası keçirilmişdir. İclası Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri, general-leytenant Şamı Abdullayev açaraq ötən dövrdə görülmüş işlərlə bağlı məruzə etmişdir.*

Qeyd olunmuşdur ki, hesabat dövründə istismara verilmiş 1 təhlükə potensiallı obyekt, 13 avadanlıq və qurğu dövlət reyestrində qeydiyyata alınmış, 39 ədəd texnoloji nəqliyyat vasitəsinə dövlət nömrə nişanları və qeydiyyat şəhadətnamələri verilmiş, 175 ədəd texnoloji nəqliyyat vasitəsi texniki baxışdan keçirilmişdir. Bundan əlavə, 23 müəssisədə 142 təhlükə potensiallı qurğu və avadanlıq sertifikatlaşdırılmışdır.

Məruzədə yanğın təhlükəsizliyi sahəsində keçirilən tədbirlərə də toxunulmuş, vurğulanmışdır ki, nazirliyin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumları tərəfindən 1398 obyektdə əsaslı, 1362 obyektdə nəzəri, 317 obyektdə məqsədli yoxlamalar aparılmışdır. Şəhər və rayon icra hakimiyyətlərinin, yerli özünüidarə orqanlarının iştirakı ilə reydlər keçirilərək 60 min 927 şəxsi yaşayış evində, 327 dövlət yaşayış binasının 16 min 386 mənzilində yanğına qarşı yoxlamalar keçirilmiş, 17 min 844 ədəd yaddaş kitabçası təqdim edilmiş, 120 min 966 nəfər yanğına qarşı təlimatlandırılmışdır. Keçirilən reydlər zamanı 269 ədəd əlavə çəkilmiş elektrik xətti, qeyri-standart elektrik qızdırıcıları və yanğın cəhətdən qorxulu olan nasaz elektrik sahəsi qadağan edilmiş, təhlükəli yerlərə yığılmış 42 ədəd otsaman tayasının yeri dəyişdirilərək təhlükəsiz yerlərə köçürülmüşdür. Eyni zamanda ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyi ilə bağlı Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi və "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin əməkdaşlarının iştirakı ilə 9 maarifləndirici tədbir təşkil olunmuş, 145 kombayna yanğına qarşı baxış keçirilmiş, 14 un dəyirmanı və 2 yem anbarının yanğın təhlükəsizliyi vəziyyəti yoxlanılmış, 1479 nəfər yanğına qarşı təlimatlandırılmışdır.

Kollegiya iştirakçılarının diqqətinə çatdırılmışdır ki, yanğına qarşı profilaktik tədbirlərin aparılmasına baxmayaraq, 2015-ci ilin 6 ayı ərzində muxtar respublika ərazisində 5 yanğın hadisəsi qeydə alınmış, 82 min 700 manat dəyərində əmlak və tikili yanğından xilas edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 yanvar 2015-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın icrası ilə bağlı obyektlərin layihələndirilməsi mərhələsində 21 tikinti obyektinin ərazisindən götürülmüş qrunt nümunələrinin mühəndis-geoloji, sement və beton laboratoriyasında analizi aparılmış, dəmir-beton konstruksiyalarda betonun naturada möhkəmlik dərəcəsi yoxlanılmış, beton divar daşı nümunələri götürülərək sınaqdan keçirilmişdir. Bəhs olunan dövrdə muxtar respublikada fəaliyyət göstərən 10 tikinti təşkilatına birinci və ikinci məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin aparılması fəaliyyət növləri üzrə lisenziyanın verilməsi təmin olunmuşdur.

İclasda görülən işlərlə bərabər, qarşıda duran vəzifə və tapşırıqlardan da danışılmışdır.

Sonra məruzə ətrafında Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi Vüqar Kazımovun, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Ehtiram Məmmədovun və Mülki Müdafiə Alayının komandiri, polkovnik İspəndiyar Əhmədovun çıxışları olmuşdur.

Tədbirə Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri, general-leytenant Şamı Abdullayev yekun vurmuşdur.

*Dünən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasında komitənin sədri Ramilə Seyidova 2015-ci ilin birinci yarimili ərzində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.*



Bildirilib ki, əvvəlki illərdə olduğu kimi, cari ilin ötən dövründə də ailə, qadın və uşaq siyasətinin gücləndirilməsi sahəsində seminarlar, konfranslar, müsabiqələr, tədbirlər keçirilib, ailə, qadın və uşaqlarla bağlı məlumat bazası yaradılıb. Komitə tərəfindən 2015-ci ilin 6 ayı ərzində 18 tədbir, 10 seminar, 2 konfrans, məktəbəqədər müəssisələrin uşaqları və sağlamlıq imkanları məhdud uşaqlar arasında müsabiqə, rəsm, əl işi və musiqi, şeir, inşa-yazı, şeir və rəsm, yazı və rəsm müsabiqələri keçirilib.

Bu il fevralın 9-da "2014-cü ilin yekunları və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə ailə və qadınlarla bağlı məlumat bazasının təkmilləşdirilməsi, qadınların sağlamlıqlarının qorunması istiqamətində maarifləndirici tədbirlərin davam etdirilməsi tapşırılıb. Verilən tapşırıqlara uyğun olaraq, komitədə ailə və qadınlarla bağlı məlumat bazası yenilənib, komitə muxtar respublikanın Səhiyyə Nazirliyi ilə birlikdə qadınların sağlamlığının qorunması, yeni nəslin sağlam doğulması və böyüməsi, erkən və qanqohumluğu nikahlarının bağlanması nəticəsində ortaya çıxan mənfi cəhətlərin əhalinin lazımi yaş qruplarına çatdırılması məqsədilə Şərur rayonunun Püsyan kəndində, Ordubad rayonunun Aşağı Əylis kəndində "Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları" mövzusunda tədbir keçirib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın müvafiq bəndinin icrası ilə əlaqədar olaraq 2015-ci ilin 6 ayı ərzində 158 nəfəri məktəbəqədər-yaşlı olmaqla, 485 nəfər sağlamlıq imkanları məhdud uşaqların valideynləri ilə əlaqə yaradılıb və onlarla maarifləndirici söhbət aparılıb. Müvafiq kateqoriyadan olan uşaqlar haqqında məlumat bazası yaradılıb və onlardan 42 nəfər potensiallarına uyğun olaraq məktəbəqədər, məktəb və məktəbdənkənar təlim-tərbiyə, müalicə və reabilitasiya müəssisələrinə yönləndirilib.

Bildirilib ki, sözügedən proqramın icrası ilə bağlı komitə üzərinə düşən vəzifəni layiqincə həyata keçirməyə çalışır. Komitə tərəfindən muxtar respublika üzrə 1972 nəfər 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar arasında 370 nəfərin məktəbəqədəryaşlı olduqları müəyyən edilib və onlar haqqında məlumat bazası yaradılıb. Məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyə işinə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə 56 nəfər müəllim, metodist və tərbiyəçinin iştirakı ilə 2 kurs təşkil edilib, bu qəbildən olan uşaqlar üçün qanvermə aksiyaları keçirilərək 6 litrə yaxın qan toplanaraq Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin qan bankına təhvil verilib. Proqramın icrası ilə bağlı görülən işlər davam etdirilir.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



*Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində 2015-ci ilin birinci yarısının yekunlarına dair kollegiya iclası keçirilmişdir.*

İclasda xidmətin rəisi Əbil Əbilov məruzə ilə çıxış edərək bildirmişdir ki, daxili bazarın yüksəkkeyfiyyətli yerli ət və süd məhsulları ilə təmin olunmasında mühüm rol oynayan baytarlıq xidməti cari ilin ötən dövründə də uğurla davam etdirilmiş, sağlam təsərrüfatların qorunub saxlanılması üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərilmişdir. Epizootik tədbirlər planına uyğun olaraq, xroniki xəstəliklərdən olan brusellyoza qarşı 32019 baş iribuynuzlu və 43403 baş xırdabuynuzlu heyvanlardan qan nümunələri götürülərək baytarlıq laboratoriyalarında seroloji müayinədən keçirilmişdir.

Qeyd olunmuşdur ki, profilaktik məqsədlə kənd təsərrüfatı heyvanları arasında qarayara xəstəliyinə qarşı 90030 baş iribuynuzlu, 467010 baş xırdabuynuzlu, dabaq xəstəliyinə qarşı 89744 baş iribuynuzlu, 475370 baş xırdabuynuzlu, emkar xəstəliyinə qarşı 115071 baş iribuynuzlu, bradzot xəstəliyinə qarşı 117528 baş xırdabuynuzlu, REV-1 brusellyoz xəstəliyinə qarşı 123022 baş xırdabuynuzlu, nodulyar dermatit xəstəliyinə qarşı 53106 baş iribuynuzlu heyvanlarda, pasterellyoz xəstəliyinə qarşı 201284 baş, taun "H" xəstəliyinə qarşı 308927 baş quşlarda peyvəndləmə tədbirləri aparılmış və hazırda bu tədbirlər davam etdirilir.

Naxçıvan Muxtar Respublikasının baytarlıq laboratoriyalarında mal-qara və ev quşlarının parazitlərlə yoluxma dərəcəsini müəyyən etmək üçün 239811 helmentoloji analizlər aparılmış və əhalini sağlam heyvandarlıq məhsulları ilə təmin etmək üçün baytar-sanitar ekspertiza laboratoriyalarında və bakteroloji laboratoriyalarda 9460 ədəd patoloji nümunə infeksion xəstəliklərə görə bakterioskopik müayinələrdən keçirilmişdir.

Bütün yaşayış məntəqələrində, o cümlədən mal-qara saxlanılan tövlələrdə, yataq yerlərində, quş damlarında, ümumilikdə, 2669 obyektdə 497350 kvadratmetr sahədə dezinfeksiya tədbirləri həyata keçirilmişdir.

Sonra məruzə ətrafında xidmətin Epizootiya əleyhinə mübarizə və müalicə profilaktikası sektorunun müdiri Şəmsəddin Nağıyevin, Ümumi işlər və kadrlar sektorunun müdiri Mehdi Əliyevin, Naxçıvan şəhəri, Ordubad və Sədərək Rayon Baytarlıq idarələrinin rəisləri Mirvasif Seyidov, Pamir Hüseynov, Bahadur Hüseynov və başqalarının çıxışları olmuşdur.

Kollegiya iclasında işdə buraxılan nöqsanlara da toxunulmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

*Naxçıvan Tibb Kollecində də 2015-ci ilin birinci yarısının yekunlarına həsr olunmuş tədbir keçirilib.*



Tədbirdə kollecin direktoru İlhamə Mustafayeva çıxış edərək bildirib ki, Naxçıvan Tibb Kolleci təhsilin və səhiyyənin inkişafına öz töhfəsini verməyə çalışır. 2014-2015-ci tədris ilindən başlayaraq təhsil kredit sistemi ilə həyata keçirilir. Hazırda payız və yaz semestrindən akademik borcu olan 79 tələbə kreditlərini ödəmək üçün 6 həftəlik yay məktəbində iştirak edirlər. 2014-2015-ci tədris ilində kollecdə 7 fənn birləşmə komissiyası, kabinə rəhbəri, tyutor və qrup rəhbərləri fəaliyyət göstərirlər. Onlar tərtib olunmuş plan əsasında işləyərək kollecin ictimai həyatında, tədbirlərdə, dərnəklərdə tələbələrin fəal iştirakını təmin edirlər. Həftədə bir dəfə qrup iclasları keçirərək təlim-tərbiyə, dərsə davamiyyət, təcrübə dərslərinin vəziyyəti, imtahanlara hazırlığın təşkili və sair məsələlər müzakirə edilib, çatışmazlıqları aradan qaldırmaq məqsədilə lazımi tədbirlər görülüb.

Qeyd olunub ki, 1 iyun 2015-ci il tarixə tələbələrin ümumi sayı 594 nəfər olub. Bunlardan 216 nəfəri dövlət hesabına, 378 nəfəri ödənişli əsaslarla təhsil alan tələbələrdir. Bu il kollecdən 5 qrup üzrə 107 nəfər tələbə məzun olub. Məzunlardan 36 nəfəri dövlət hesabına, 71 nəfəri ödənişli əsaslarla təhsil alan tələbələrdir.

Ötən dövrdə kollecdə keçirilən mədəni-kütləvi və elmi-praktik konfranslardan danışan İlhamə Mustafayeva qarşıda duran vəzifələrdən də bəhs edib.

Sonra məruzə ətrafında çıxışlar olub.

## Proqnoz tapşırıqlara artıqlaması ilə əməl olunub

*Naxçıvan Şəhər Vergilər İdarəsindən qəzetimizə verilən məlumata görə, cari ilin birinci yarısında sahibkarlıq fəaliyyəti ilə məşğul olan 12 hüquqi və 192 fiziki şəxs olmaqla, ümumilikdə, 204 vergi ödəyicisi qeydiyyata alınıb.*

Məlumatda bildirilir ki, ayrı-ayrı sahibkarların müraciətləri qanunamüvafiq qaydada cavablandırılıb, bəyannamələrin düzgün tərtib edilməsinə köməklik edilib, elektron bəyannamə xidməti göstərilib. Həmçinin vergi ödəyicilərinin vergi orqanlarına gəlmədən internet vasitəsilə bəyannamələrinin təqdim olunması, özlərinin şəxsi vərəqələrinə nəzarət etmək, elektron əməliyyatlar aparmaq imkanının yaradılması məqsədilə cari ilin ilk 6 ayında sahibkarlıq fəaliyyəti ilə məşğul olan 103 vergi ödəyicisi ilə "Vergi hesabatlarının elektron sənəd formasında göndərilməsi haqqında" müqavilə bağlanaraq onlara parol-şifrələr verilib. Parol-şifrə verilmiş vergi ödəyicilərinin hamısının bəyannamələri elektron poçt vasitəsilə Naxçıvan Şəhər Vergilər İdarəsinə təqdim edilib.

Vergi ödəyicilərinin məlumatlandırılması ilə yanaşı, nəzarət işinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada aparılması, proqnoz tapşırıqların bütün növ tədiyələr üzrə yerinə yetirilməsi, qalıqlara yol verilməməsi, hesablanmış vəsaitin büdcəyə ödənilməsi, vergi orqanlarında qeydiyyatda durmadan fəaliyyət göstərilməsi, işəgötürən və işçilər arasında əmək müqavilələrinin bağlanmaması və vergidən yayınma hallarının qarşısının alınması məsələləri də diqqət mərkəzində saxlanılıb. 2015-ci ilin ilk 6 ayında Naxçıvan şəhəri ərazisində fiziki və hüquqi şəxslərin fəaliyyət göstərdiyi 26 obyektdə nəzarət-kassa aparatı quraşdırılıb.

Həmçinin işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi qaydalarına riayət olunması ilə əlaqədar reydlər davam etdirilib, 44 yeni obyektdə 76 nəfərlə əmək müqaviləsinin bağlanmasına, 99 obyektdə isə 382 əmək müqaviləsinin yenilənməsinə köməklik göstərilib.

Məlumatda o da bildirilib ki, vergilər və digər icbari ödənişlər üzrə proqnoz tapşırıqda nəzərdə tutulmuş 5 milyon 778 min manata qarşı 6 milyon 267 min manat vəsait toplanılıb büdcəyə ödənilib. Bu da yarımillik tapşırığın 108,5 faiz yerinə yetirilməsi deməkdir.

**Xəbərlər şöbəsi**

***Qısa arayış:*** *Ordubad kiçik Qafqaz sıra dağlarının Qapıcıq zirvəsinin ətəklərində yerləşir. Relyefi əsasən dağlıq, az bir hissəsi dağətəyi, 5-6 faizi isə aran ərazidən ibarətdir. Son dərəcə zəngin florası və faunası vardır. Yaşayış məntəqəsi dağətəyi ərazidə yerləşir. Əkinçilik üçün su ehtiyatına və içməli su mənbələrinə malikdir. Ordubad rayonu 8 avqust 1930-cu ildə rayon kimi təşkil olunub. 4 yanvar 1963-cü ildə rayon ləğv edilərək Culfa rayonunun tərkibinə verilib, 6 yanvar 1965-ci ildə yenidən təşkil edilib. Cənubdan İran İslam Respublikası, şimaldan və şərqdən Ermənistanla həmsərhəd olmaqla, qərbdən Culfa rayonu ilə qonşu olan Ordubad rayonunun sahəsi 978,99 kv.km, əhalisi 48 min 780 nəfərdir. Mərkəzi Ordubad şəhəridir. Rayonda 1 şəhər, 3 qəsəbə, 43 kənd vardır.*

*Blokada və intibah*

# Ordubad muxtar respublikamızın inkişaf etmiş bölgələrindən birinə çevrilib



Qədim Naxçıvan torpağında xan Arazın gecə-gündüz keşiyini çəkdiyi, dəniz səviyyəsindən 850 metr yüksəklikdə yerləşən, yaşı qədimdən qədim olan, tikililəri, çinarları yüzilliklərə şahidlik edən bir şəhər və bu şəhərin ətrafına səpələnmiş abad, axarlı-baxarlı kəndləri olan bir rayon var. Çeşmələri bol sulu, ağacları barlı-bəhərli, insanları qonaqpərvər, son dərəcə mehriban olan bu diyara tarix "Ordubad" adı verib.

Son 20 ildə təkcə Ordubad şəhərində onlarla yeni obyekt tikilib istifadəyə verilib. Rayon İcra Hakimiyyətinin binası müasir standartlara cavab verə biləcək şəkildə təmir edilib, Qaz İstismarı İdarəsi, Vergilər Şöbəsi, Mədəniyyət Evi üçün yeni binalar inşa edilib. Şəhərdə aparılan quruculuq tədbirləri bunlarla məhdudlaşmayıb. Burada rayon Elektrik Şəbəkəsi, Əhalinin Sosial Müdafiəsi Mərkəzi, Dövlət Sosial Müdafiə Fondunun Ordubad Rayon Şöbəsi, 7 saylı Dairə Seçki Komissiyası, Ordubad Şəhər Uşaq musiqi məktəbi üçün binalar tikilib. Nəqliyyat infrastrukturunun yeniləşdirilməsi istiqamətində konkret addımlar atılıb, şəhərdə müasir tələblərə cavab verən avtovağzal kompleksi, aviakassa əhalinin istifadəsinə verilib. Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının, rayon Polis Şöbəsinin, prokurorluğunun, məhkəməsinin, Kompüter Təlim-Tədris Mərkəzinin, akademik Yusif Məmmədəliyevin ev-muzeyinin, Məmməd Səid Ordubadinin ev-muzeyinin, uşaq bağçasının, şahmat məktəbinin yeni inşa edilmiş və ya yenidən qurulmuş binaları da son illərin quruculuq ərməğanlarındandır. Rayon Mərkəzi Xəstəxanasının binası isə öz görünüşünə və avadanlıq təminatına görə Naxçıvan şəhərindəki səhiyyə ocaqlarından fərqlənmir. Şəhər ərazisindəki bərpaya ehtiyacı olan tarixi abidələr də həyata keçirilən tədbirlərdən nəsibini alıb. Belə ki, Ordubad şəhərində indi Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyət göstərdiyi Qeysəriyyə binası, qədim məbəd, iki yeraltı abidə, bir neçə tarixi kəhriz və digər abidələr bərpa edilərək əvvəlki görünüşünə qaytarılıb. Rayonun kəndləri də quruculuq tədbirlərindən kənarda qalmayıb. Ordubad şəhərindən kəndlərə aparan yollar ən müasir şəkildə yenidən qurulub, yaşayış məntəqələrində kənd və xidmət mərkəzləri tikilib, bu mərkəzlərdə dövlət qurumları və xidmət sahələri üçün hərtərəfli şərait yaradılıb. İndi kəndlərdə ən müasir tələblərə cavab verən həkim ambulatoriyaları, feldşer-mama məntəqələri, əczaxanalar fəaliyyət göstərir. Kəndlərdə rabitə xidməti, elektrik enerjisi, mavi yanacaqla təminat məsələlərinə də xüsusi diqqət yetirilir. Diqqətçəkən məqam ondan ibarətdir ki, sovet hakimiyyəti illərində mavi yanacaq, elektrik enerjisi, rabitə sahəsində böyük çətinliklərlə üzləşən Ordubad kəndlərində indi bu çətinliklər tamamən aradan qaldırılıb.

Bu gün öz inkişaf dövrünü yaşayan, nəinki Naxçıvan Muxtar Respublikasının, hətta Azərbaycanın ən inkişaf etmiş bölgələrindən biri kimi tanınan Ordubad rayonu hazırkı mərhələyə asan yolla çatmayıb. İllər ötdükcə, Naxçıvanda gedən inkişaf prosesi yeni mərhələyə qədəm qoyduqca, muxtar respublikanın sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər bütün bölgələr kimi, Ordubadda da öz səmərəli nəticələrini verdikcə, rayon iqtisadiyyatı daha da gücləndikcə, əhalinin güngüzəranı yaxşılaşdıqca qədirbilən ordubadlılar son 20 ildə görülən işlərin əsl mahiyyətini daha yaxşı, daha dərindən dərk edirlər. Çünki yaxın keçmişdə rayonda baş verənlər unudulmayıb.

...*"Biz ağsaqqallar böyük narahatlıq hissi ilə Sizə bildirməyə məcburuq ki, Ordubad rayonunda iqtisadi-siyasi vəziyyət olduqca gərgindir. Bunun səbəbi ondan irəli gəlir ki, rayonun inzibati orqanları, ilk növbədə isə rayon prokuroru və xalq hakimi siyasi sabitliyi bərpa etmək iqtidarında deyillər. Dövlət qanunlarının icrasına nəzarət edilmir, zəhmətkeşlərin hüquqlarının qorunmasına laqeyd münasibət göstərilir, sağlam qüvvələrin hər addımda təhqir edilməsinə, onların hədələnməsinə, döyülməsinə heç bir reaksiya verilmir. Bir sözlə, rayon prokuroru və rayonun xalq hakimi Azərbaycan dövlətinin və respublika hökumətinin qanunlarını və hüquqi aktlarını yerinə yetirmək istəmir, Xalq Cəbhəsinin mənafeyinə xidmət göstərirlər. 1 mart 1994-cü il tarixdə biz ağsaqqalların təşəbbüsü ilə keçirilən mitinqdə ictimaiyyəti narahat edən bir sıra problemlər açıqlandı. Çıxış edənlər dəqiq faktlar əsasında göstərdilər ki, rayon rəhbərliyi fəlakət qarşısında olan rayonu xilas etmək iqtidarında deyildir. Buna görə də xalq deputatları məclisinin və İcraiyyə Komitəsinin rəhbərliyi qeydşərtsiz istefa verməlidirlər".*

Bu sətirlər ümummilli liderimiz Heydər Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Ordubad rayonunun şəhər, qəsəbə və kəndlərində yaşayan bir qrup ağsaqqalın 1 mart 1994-cü il tarixdə keçirilmiş mitinqdə qəbul edilmiş müraciətindən götürülüb. Qeyd edək ki müraciət "Şərq qapısı" qəzetinin 5 mart 1994-cü il tarixli nömrəsində dərc edilib və Ordubad rayonunun o illərdəki durumunu gözlər önünə sərir.

Həmin mitinqdə qəbul edilmiş qətnamədə deyilirdi: *"1 mart 1994-cü il tarixdə Ordubad şəhərində rayon ağsaqqallarının iştirakı ilə keçirilən mitinqdə rayonda ictimai-siyasi vəziyyəti, getdikcə dərinləşən iqtisadi böhranı, günü- gündən artan mənəvi sarsıntı şəraitini böyük narahatlıq hissilə müzakirə edərək bildiririk ki, Azərbaycanda xalq təsərrüfatının bir çox sahələrində, eləcə də ideya-siyasi, əxlaqi və vətənpərvərlik sahəsində nəzərəçarpan müsbət dəyişikliklər əmələ gəldiyi, siyasi iqlimdə sabitlik yarandığı halda Ordubad rayonunda dözülməz vəziyyət hökm sürməkdədir. Azərbaycan dövləti, hökuməti, ali qanunvericilik orqanları tərəfindən qəbul edilən mühüm həyati əhəmiyyətə malik qərarlar və hüquqi aktlar yerinə yetirilmir. Rəhbərliyin zəifliyi, təşkilatçılıq işinin yarıtmaz olması ilə əlaqədar ipək kombinatı istisna olmaqla, müəssisələr işləmir, xidmət təşkilatlarının bir çoxu iflic vəziyyətinə düşmüşdür. İşsizlik ictimai bəlaya çevrilmişdir. Kənd təsərrüfatı tamamilə dağılmaq üzrədir. Rəhbərlikdə yol verilən ciddi nöqsanlar nəticəsində bir neçə kolxoz ləğv edilmiş, qalan təsərrüfatların maddi-texniki bazası məhv olmaq üzrədir. İctimai mal-qara talan edilərək satılmışdır. Bağ-bağat, tutluqlar, üzümlüklər əsasən sıradan çıxmış, bərəkətli torpaqların bir hissəsi naxələf adamların əlinə keçmişdir. Təsərrüfatda qaramalın sayı son 3 ildə 10 dəfə, davarların sayı 12 dəfə, ət və süd istehsalı orta hesabla 200 dəfə azalmışdır.*

*Təxribat xarakterli təbliğat və rayon rəhbərliyinin anlaşılmaz mövqeyi nəticəsində təsərrüfata düşmən münasibət bərqərar olmaqdadır. Yerlərdə torpağa münasibət dözülməzdir. Payızlıq taxıl əkinləri heç bir aqrotexniki qaydalarda aparılmamış, indiyədək becərilmə tədbirləri həyata keçirilməmişdir. Cari ilin məhsulu üçün yaz-tarla işlərinə hazırlıq isə tamamilə unudulmuşdur. Kəndlərdə əmək qabiliyyətli əhalinin əksəriyyəti ictimai faydalı əməkdən kənarda qalmışdır. Xırda alver, möhtəkirlik, kommersiya ticarəti əhalini ac-yalavac vəziyyətə düçar etmişdir".*

Həmin dövrdə baş verənlər yalnız acı xatirə kimi yaddaşlarda qalıb. O dövrün canlı şahidi, rayon ziyalısı Təvəkkül Məmmədov deyir ki, 1995-ci ildə cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə Ordubad rayonunda vəziyyət müsbətə doğru dəyişildi, bütün sahələrdə iflasa üz tutmuş rayonda həyata keçirilməş təxirəsalınmaz tədbirlər nəticəsində əvvəlcə ictimai-siyasi sabitlik bərpa olundu, iqtisadi böhranın aradan qaldırılması üçün ilkin zəruri addımlar atıldı. O dövr üçün atılan mütərəqqi addımlardan biri də qanunların aliliyinin təmin olunması, dövlət qurumlarında rəhbər vəzifələrə səriştəli şəxslərin gətirilməsi, aqrar sahədə mühüm qərarların verilməsi oldu. Rayonun müxtəlif sahələrdə inkişafına əhalinin bütün təbəqələri cəlb edildi. Bunun da nəticəsində inkişaf təmin edildi, əhalinin məşğulluq problemi aradan qaldırıldı, azad sahibkarlıq inkişaf etdirildi, dağıdılmış aqrar sahə bərpa edildi. Son 20 ildə Ordubad rayonunda görülən işlər onu deməyə əsas verir ki, ulu öndərimizin Naxçıvanın inkişafı naminə başlatdığı işlər muxtar respublikada uğurla davam etdirilir. İndi bu işlərin parlaq nəticələrini Ordubad rayonunun hər bir yaşayış məntəqəsində, əkilən, gülüstana çevrilən hər qarış torpaqda görmək olur, böyük öndərimizin muxtar respublikamızın bütün bölgələri kimi, Ordubad rayonunun gələcəyi üçün nəzərdə tutduğu işlər böyük uğurla həyata keçirilir. Bu gün hər bir rayon sakini əldə edilən nailiyyətlərdən qürur duyur. Qazanılan nailiyyətlər rayon sakinlərini daha böyük uğurlara ruhlandırır. Rayon əhalisinin maddi rifahı gündən-gündən yaxşılaşdırılır.

Həqiqətən də Ordubad bu gün inkişafın ən yüksək mərhələsindədir. Rayonda inkişafın yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası böyük əhəmiyyət kəsb edir. Regionların hərtərəfli tərəqqisi sahəsində 2004-cü ildən başlanmış məqsədyönlü siyasətə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" və 2009-cu il 28 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilib. Hər iki dövlət proqramının muxtar respublikada, eləcə də Ordubad rayonunda uğurla icrası nəticəsində rayonda real sektorun inkişafı sürətləndirilib, tarazlı və davamlı inkişafa nail olunub, kommunal xidmət və sosial infrastruktur təminatı yaxşılaşdırılıb, məşğulluq və həyat səviyyəsi yüksəldilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Ordubad rayonunda da yeni mərhələnin başlanğıcını qoyub. Müasir dövrdə əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması və onlardan səmərəli istifadə mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" Ordubad rayonunda da əmək bazarının tənzimlənməsində mühüm rol oynayıb, işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar yaradıb.

Etibarlı ərzaq təminatı iqtisadi sabitliyin və sosial dayanıqlılığın başlıca şərtidir. Ona görə də cəmiyyətin hər bir üzvünün əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsi çox vacibdir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" Ordubad rayonunda da uğurla icra edilir. Bunun nəticəsidir ki, rayonda kənd təsərrüfatı sahəsində məhsuldarlıq artır, əkinçilik sahələri genişləndirilir, torpaqdan və sudan istifadədə mütərəqqi metodlardan istifadə edilir. Aqrar bölmənin maddi-texniki bazasının gücləndirilməsi, eləcə də texnika, gübrə və bitki mühafizəsi vasitələri ilə təminatın ən yüksək səviyyəyə çatdırılması bol məhsul əldə edilməsinə zəmin yaradıb. Rayonda baytarlıq işinin təşkilinə də xüsusi diqqət yetirilir, sanitariya sağlamlığı, təhlükəli yoluxucu xəstəliklərin qarşısının alınması, insan sağlamlığı üçün yararlı və təhlükəsiz heyvandarlıq məhsullarının istehsalı, habelə əhalinin insan və heyvanlar üçün təhlükəli olan xəstəliklərdən qorunması istiqamətində bir sıra işlər görülür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2012-ci il tarixli Sərəncamla təsdiq etdiyi "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Ordubad rayonunda da meyvə-tərəvəzçilik sahəsində yeni mərhələnin əsasını qoyub. Son illər rayonda iməciliklər yolu ilə yerli iqlim və relyefə uyğun təyzetişən meyvə sortlarından ibarət 108,5 hektar meyvə bağı salınıb və 140 mindən artıq ting əkilib. Dövlətin maliyyə dəstəyindən yararlanan rayon sakinləri yeni meyvə bağları salıb, istixanalar yaradıblar. Təkcə bir fakta diqqəti çəkmək yerinə düşər ki, 2004-cü ildən 2015-ci ilədək rayonda 137,9 hektar sahədə meyvə bağı salınıb. Yeni salınan meyvə bağlarının 13,4 hektarı ötən ilin payına düşüb. Təkcə ötən il meyvə bağlarından 1583 ton məhsul tədarük olunub. Dövlət proqramına uyğun olaraq, rayonda tərəvəzçiliyin inkişafına da xüsusi diqqət yetirilir. 2014-cü ildə rayonda 672 hektar sahədə tərəvəz bitkiləri əkilib. Hektarın orta məhsuldarlığı 67 sentnerə çatdırılıb. Sahələrdən 4503 ton məhsul tədarük edilib. Bu da əvvəlki ildən 40,8 ton çoxdur. Hazırda rayonda üzümçülüyə fəal və doğma münasibət bərpa olunur, yeni üzüm bağları salınır. Əhalinin alıcılıq imkanlarının yaxşılaşması bazarlara Ordubad rayonundan daha çox süfrə üzümü və ondan hazırlanan müxtəlif məhsulların çıxarılması ilə müşayiət olunur. Süfrələrimizin bəzəyi, adamların sağlamlığı üçün zəngin mineral tərkibə malik olan kişmiş və mövüc istehsalı da rayonda ilbəil artır. Hazırda rayonda daxili və xarici bazara keyfiyyətli məhsul çıxarılması, yeni texnologiyanın tətbiqi, üzümçülük üzrə iri təsərrüfatların yaradılması istiqamətində məqsədyönlü iş aparılır, üzümçülüyün sənaye miqyasında genişləndirilməsi imkanları araşdırılır.

*Ordubad rayonunun yaşı qədimdən-qədim yaşayış məntəqələrini gəzərkən, tarixiliyin və müasirliyin vəhdətindən doğan gözəllikləri seyr edərkən bir daha müstəqilliyimizin saysız bəhrələrinin insanların həyatına müsbət təsirinə şahidlik edirsən. Əmin olursan ki, dahi rəhbərimiz Heydər Əliyevin bizim üçün əbədiliyini təmin etdiyi müstəqil ölkəmizdə qarşıdan gələn hər il yeni uğurlar, nailiyyətlər gətirəcək, Azərbaycanın incisi olan bu bölgəmiz daha da inkişaf edərək dünyanın ən gözəl yaşayış məskənlərindən biri kimi tanınacaq.*

✍ **Səbuhi HÜSEYNOV**

*Yazı "Naxçıvan: müstəqillik illərində" gənclər arasında yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür*

## Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində ixtisaslı kadrlar hazırlanır



*Naxçıvan Muxtar Respublikasında texniki-peşə təhsilinin inkişaf tarixinin təhlili göstərir ki, bu təhsil pilləsi cəmiyyətin müxtəlif inkişaf mərhələlərində formalaşaraq tarixi bir yol keçib və iqtisadiyyatımızın bütün sahələrinin ixtisaslı kadrlara olan tələbatının ödənilməsində mühüm rol oynayıb. Xüsusən 1995-ci ildən sonrakı dövrdə muxtar respublikanın texniki-peşə məktəblərində təlim-tərbiyə prosesinin səmərəliliyinin yüksəldilməsi, gənclərin peşə və fənlərə olan maraq və meyillərinin artırılması, istedadlı gənclərin üzə çıxarılması, onlarla aparılan işin forma və metodlarının təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib.*

Bundan başqa, müasir infrastrukturun yaradılması, texniki-peşə təhsilinin təkmilləşdirilməsi, bazar iqtisadiyyatının tələblərinə və əmək bazarında rəqabətədavamlı, yüksəkixtisaslı kadrların hazırlanması da xüsusi diqqətdə saxlanılan məsələlərdəndir. 2012-ci il avqust ayının 15-də istifadəyə verilən Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəb Kompleksi də muxtar respublikada texniki-peşə təhsilinin müasir standartlarda həyata keçirilməsinə imkan verir.

Ötən günlərdə qonağı olduğumuz məktəb haqda qısa məlumat verərək qeyd edək ki, bu təhsil ocağı nəinki muxtar respublikamızda, hətta ölkəmizdə yüksək şəraitə və maddi-texniki təchizata malik olan məktəblərdən biridir. Məktəbdə 4 elektron lövhəli sinif, 2 metodiki kabinə, 2 avtotrenajor sinfi var. Sinif otaqları lazımi avadanlıqlarla təchiz edilib, kompüterlər internetə qoşulub. Yaradılan şərait məktəbdə təhsil alan müdavimlərin sürücülük və texniki peşələrə yiyələnməsinə, yol hərəkəti qaydalarının dərindən mənimsənilməsinə imkan verir. Təbii ki, belə təhsil şəraiti nəqliyyat vasitələrindən düzgün istifadəyə və yol hərəkətinin təhlükəsizliyinə təminatdır. İki mərtəbədən ibarət olan binada 23 sinif otağı vardır. Binanın birinci mərtəbəsində sənədlərin qəbulu otağı, tibb məntəqəsi, anbar, iş otaqları, kombayn və traktorların quruluşu, avtomobillərin quruluşu və istismarı, təcrübə-məşğələ və avtotrenajor sinifləri yerləşir. Sinif otaqlarında nəzəri dərslərin keçilməsi üçün yüksək şərait yaradılıb, məlumat stendləri, müxtəlif avtomobil və kənd təsərrüfatı texnikalarının hissələri qoyulub. Sözsüz ki, bütün bunlar keçilən dərslərin praktik olaraq daha yaxşı mənimsənilməsini, kənd təsərrüfatı texnikaları üzrə bacarıqlı mütəxəssislərin hazırlanmasını şərtləndirən başlıca amillərdir. Sürücülük peşəsinə yiyələnmək istəyənlər avtotrenajor siniflərində avtomobillərin idarə olunmasını praktik olaraq mənimsəyirlər. Avtotrenajorlardan biri yük, digəri isə minik maşını tiplidir. Bu avtotrenajorlar ölkəmizdə ilk dəfə olaraq Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində tətbiq olunub. Avtomobil ilə eyni sistemə malik kabinədən ibarət olan avtotrenajorlarda müxtəlif yol şəraitinə və sürət həddinə uyğun təlimlər keçirilir və sürmənin nəticələri avtomatik olaraq kompüter idarəetmə sisteminə göndərilir. Təlimlərin səmərəli təşkili və müdavimlərin yüksək səviyyədə hazırlanması gələcəkdə baş verə biləcək yol-nəqliyyat hadisələrinin ilkin mərhələdə qarşısının alınması və avtonəqliyyat vasitələrindən düzgün istifadə baxımından əhəmiyyətlidir. Binanın ikinci mərtəbəsində metodiki kabinələr, kompüter otağı, tibbi hazırlıq, yol hərəkəti qaydaları və ümumi hərbi hazırlıq sinifləri, müəllimlər otağı, elektron lövhəli siniflər, təlimatçı otağı və arxiv vardır. Kompüter otağında 18 kompüter qoyulub və internetə çıxışları təmin edilib.

Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbinin yataqxanası və yürüş-təlim meydançası müasir tələblər səviyyəsindədir. Burada aparılan kompleks quruculuq işləri çərçivəsində inşa olunan yataqxana binası müasir tələblərə cavab verir. Məktəb kompleksində yataqxana binasının yaradılması təhsil alanların rahatlığı baxımından əhəmiyyətlidir. Bu, tədrisin keyfiyyətinin yüksəldilməsinə və davamiyyətin təmin olunmasına imkan verir. Təlim meydançasında yol hərəkəti qaydalarına və müxtəlif yol nişanlarının tələblərinə əməl etməklə avtomobillərin idarə olunması praktik olaraq öyrədilir, müdavimlər əyani sürmə vərdişlərinə yiyələnirlər.

Məktəbdə sürücülük peşəsinin sirlərini öyrənən Vüsalə Qasımova deyir ki, muxtar respublikada ictimai asayişin qorunmasında əldə edilən nailiyyətlərin, Naxçıvanın bugünkü inkişafının insanların düşüncə tərzinə də müsbət təsir göstərməsi bir çox qadınlar kimi, onun da sürücülük peşəsinə yiyələnmək həvəsini artırıb. Buna görə də o, bu məktəbə müraciət edib və sürücülük peşəsini öyrənməyə başlayıb. Məktəbdə yaradılan şəraitdən minnətdarlıqla danışan Vüsalə bildirir ki, burada bizim bu peşəni yaxşı öyrənməyimiz üçün hər cür imkanlar mövcuddur, hər şey dəqiqliklə hazırlanıb. Məktəbin müəllim heyəti isə peşəkarlardan ibarətdir və onlar bir sürücünün bilməsi vacib olan bütün bilikləri müdavimlərə bütün incəlikləri ilə mənimsədir, qarşılarına çıxan hər bir çətinlikdə onlara kömək edirlər. Burada yaradılan şəraitə görə dövlətimizə minnətdarıq.

Məktəbin direktoru Elbrus İsmayılov muxtar respublikada 20 il bundan əvvəlki dövrdə baş verən avtomobil qəzaları ilə müqayisədə indi belə qəzaların sayının xeyli azaldığını dedi. Qeyd etdi ki, avtomobil qəzalarının çox olmasının obyektiv səbəbləri var idi. Bu qəzalara yolların darlığı və istismara yararsızlığı ilə bərabər, sürücülərin səriştəsizliyi və məsuliyyətsizliyi, nəqliyyatın təhlükəsizliyinə nəzarətin zəifliyi də şərait yaradırdı. Bütövlükdə, muxtar respublikanın yol təsərrüfatı sistemində, xüsusən yerli avtomobil yolları sistemində idarəetmə quruluşu köhnə olduğundan ümumi istifadədə olan yolların saxlanmasını, inkişafı və abadlaşdırılmasını təmin edə bilmirdi. Ancaq 1995-ci ildən sonra bu sahədə müsbətə doğru köklü dəyişikliklər baş verdi. Bunun nəticəsidir ki, müasir dövrümüzdə muxtar respublikada nəqliyyat vasitələrinin bəhs etdiyim dövrdən qat-qat çox olmasına baxmayaraq, qəza halları ilə çox az-az qarşılaşırıq. Təbii ki, bu işdə Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbinin də xüsusi rolu var. Qeyd edim ki, məktəbin yaradılmasından sonrakı ilk mərhələdə sürücülük vəsiqəsinin asan əldə olunması tendensiyası aradan qaldırılıb. Məktəbin müdavimlərinin sonrakı fəaliyyəti də xüsusi diqqət yetirilən məsələlərdəndir. Sevindirici haldır ki, məktəbin müdavimləri arasında yol hərəkəti qaydalarını pozan, səkiləri zəbt edən, sürət həddini aşan, avtomobilini qaydasız və pərakəndə park edən və sair avtomobil qəzalarının artmasına şərait yaradan sürücülər, demək olar ki, yox dərəcəsindədir. Bu da, təbii ki, məktəbin müəllim heyətini ruhlandırır, yeni-yeni nailiyyətlər qazanmağa həvəsləndirir.

Məktəbin müəllimlərindən Həsən Orucov isə bildirdi ki, tədris prosesində gənc sürücülərə onu aşılamağa çalışırıq ki, bütün qayda və qanunlar, ilk növbədə, həmin sürücünün həyatının və ətrafdakıların təhlükəsizliyinə hədəflənib. Çünki dövlətimiz üçün ən vacib olan öz vətəndaşının sağlamlığı, təhlükəsizliyidir. 2010-cu ildən indiyədək məktəbimizi 12657 müdavim bitirib. Müdavimlərimizlə söhbətlərimiz zamanı dəfələrlə qeyd edirik ki, yüksək sürücülük mədəniyyəti qazanmış sürücülər qəzaların qarşısını alacaq çox mühüm faktordur. Əgər bir sürücü yolda qəza vəziyyəti yaradırsa, təkcə özünün yox, o ərazidə olanların da həyatını təhlükə altında qoyur, baş verən qəza təkcə onun deyil, başqaları üçün də geriyə qaytarılması mümkün olmayan nəticələrə səbəb olur. 2012-ci ilin avqust ayının 15-də istifadəyə verilən Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəb Kompleksinin açılış mərasimində muxtar respublika rəhbəri cənab Vasif Talıbovun ***"Hər bir müdavim sürücülük vəsiqəsi almaqla yanaşı, öz peşəsini də dərindən öyrənməli, əsl mütəxəssis kimi hazırlanmalıdır"*** fikri bu gün məktəbin hər bir müəllimi üçün proqram xarakteri daşıyır. Çalışırıq ki, məktəbdə təhsil alan müdavimlərin dövlətimiz tərəfindən yaradılan şəraitdən düzgün istifadə etməsinə geniş imkanlar yaradaq, onların ölkəmiz üçün yararlı mütəxəssis kimi yetişmələrinə töhfəmizi verək.

Ötən il sentyabr ayının 15-də Şərur Texniki-Peşə və Sürücülük Məktəb Kompleksinin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə muxtar respublika rəhbəri demişdir: ***"Peşəkar kadrlar yalnız ali və orta ixtisas təhsili müəssisələrində hazırlanmır. Bu məsələdə peşə təhsilinin düzgün təşkili də mühüm əhəmiyyətə malikdir. Muxtar respublikanın sosial-iqtisadi inkişafı və bunun nəticəsi olaraq açılan yeni iş yerləri ixtisaslı kadrlara olan tələbatı artırıb. Bu səbəbdən son illər peşə təhsilinin məzmunu tamamilə yeniləşib, peşə tədrisi müəssisələrinin maddi-texniki bazası gücləndirilib. İqtisadiyyatın çoxşaxəli inkişafı, yeni peşə və sənət sahələrinin yaranması özü ilə bərabər, ixtisaslı kadrlara olan tələbatı da artırır. Artıq müasir dövrdə peşə təhsili günün tələbinə çevrilib".***

*Bəli, artıq müasir dövrdə peşə təhsili günün tələbinə çevrilib. Bu tələbatın dolğun ödənilməsi üçün infrastruktur təminatı yüksək səviyyədədir. İndi əsas məsuliyyət peşə təhsili sahəsində çalışanların üzərinə düşür.*

**✍ Səbuhi HÜSEYNOV**

*Muxtar respublikamızın iqlim şəraiti bitkilərin vegetasiya müddəti üçün uzundövrlüdür. Buna görə də bir sıra bitkiləri il ərzində 2 dəfə, bəzilərini isə 3-4 dəfə təkrar əkib məhsul götürmək mümkündür. Bu həm əhalini ilboyu tərəvəzlə təmin etməyə, həm məhsul bolluğu yaratmağa, həm də daxili bazarda yerli istehsalın çəkisini artırmağa imkan verir.*

**Kənd təsərrüfatı ili**

## Əkin mövsümündə eyni torpaq sahəsindən bir neçə dəfə məhsul götürməyin yolları



Təkrar əkin eyni sahədə bir növ bitkini yetişdirib yığmaq və onun yerində həmin vegetasiya dövründə, ya o, ya da başqa növ bitkini əkib-becərməkdir. Bu üsul təcrübədə özünü doğrultduğu üçün torpaq mülkiyyətçiləri, sahibkarlar, təcrübəli təsərrüfatçılar həmin metoda üstünlük verirlər.

Muxtar respublikamızın aran bölgələrində təkrar əkin aparılmasına xüsusi diqqət yetirilir. Ən çox təkrar əkilən məhsullar isə xiyar, lobya, kartof, kələm və səbzə (kahı, şüyüd, ispanaq, keşniş, məzrə, reyhan, acıtərə, qırmızı turp və sair) bitkiləridir. Müxtəlif sələflərdən (taxıl, paxlalı, bostan-tərəvəz bitkiləri və sair) sonra xiyar və lobyanı apreldə və iyulda, səbzəni yazda 2 dəfə, payızda isə 2-3 dəfə becərmək mümkündür.

Muxtar respublikamızda biçilən taxıl sahələrinin yerində kartofun yay əkini dəfələrlə sınaqdan çıxarılıb və bu gün də həmin üsuldan istifadə olunur. Bu məqsədlə seçilmiş sahələrin torpağı mütləq suvarılan, münbit və mexaniki tərkibcə yüngül olmalıdır. Müvafiq üzvi və mineral gübrələr verildikdən sonra sahələr 23-25 santimetr dərinlikdə şumlanır, qaysaq və alaq otları əmələ gəldikdə kultivasiya çəkilir. Nəzərdə saxlamaq lazımdır ki, kartof əkiləcək sahənin torpağı həm də rütubətli olmalıdır. Quru torpağa kartof əkmək olmaz. Yay əkinində kartofun 10-12 faizi cücərti vermir, cücərti verən kartofun hər birində 2-3 gövdə olur. Bu səbəbdən kartofu yay əkinində çox sıx əkmək məsləhətdir (70x20;75x15 sm). Belə halda yüksək məhsuldarlığa nail olmaq mümkündür. Tezyetişən faraş kartof sortlarından kandor, santa, ramuş, marfuna, boren və sair toxumlardan istifadə etmək olar. Hektara səpin norması 2,5-3 ton olmalıdır.

Məişətimizdə səbzə bitkilərdən qırmızı turp, acıtərə, keşniş, şüyüd və sairdən çox geniş istifadə edilir. Bunlar cücərəndən 25-40 gün sonra yığılıb istifadə olunur. Bu bitkilərdən ispanağın toxumunu payızlıq kələmin, xiyarın, gecyetişən kələmin cərgəarasına səpmək olar. Fərdi təsərrüfatlarda əkinçilər bunları da bir-birilə sıxlaşdırırlar. Belə ki, ispanağın toxumuna acıtərə, keşniş, şüyüd toxumu qatıb səpirlər. Bu halda ispanağın arasında boş qalan yerlərdə acıtərə, şüyüd və sair bitir.

Soğan, kök, cəfəri, kərəviz kimi bitkilərin toxumuna 3-4 faiz tez cücərən acıtərə, kahı qatıb səpirlər. Bunlara cərgə göstərən (mayak) bitkilər deyilir. Onlar yeyilən kimi kökündən çıxarılır.

Cavan meyvə bağlarında və üzümlüklərdə cərgəaralarına müxtəlif tərəvəz bitkiləri, xüsusən səbzələr sıxlaşdırıcı əkin məhsulu kimi xüsusi yer tutur.

Sıxlaşdırılan əkinlərin bir növü çəpərli əkinlərdir. Bu əkinlərdə əsas məqsəd tərəvəz bitkilərini soyuq və isti küləklərdən qorumaqdır. Çəpər bitkilər küləklərə qarşı perpendikulyar istiqamətdə 1-3 cərgə əkilməlidir. Çəpər bitkilər soyuğa davamlı olmalı, yerə yatmamalıdır. Yaxşı olar ki, çəpər bitkisi də tərəvəz bitkisi olsun.

Muxtar respublikamızda çəpər bitki kimi lobya, qarğıdalı, günəbaxan və sairdən istifadə olunur. Xiyar, kələm əkinlərində qarğıdalıdan istifadə edilir. Sarmaşan lobya və qarğıdalı çəpər bitkisi kimi bir yerdə becərilir. Belə əkində torpaq azotla zənginləşir və qarğıdalı gövdəsi həm lobya üçün dayaq olur, həm də 5-7 cərgə xiyarı küləklərdən yaxşı qoruyur. Həm eyni sahədən bol xiyar, qarğıdalı, lobya məhsulu, həm də heyvanlar üçün yem kimi xeyli kütlə götürülür.

Muxtar respublikamızda təkrar sıxlaşdırılan, çəpərli əkinlərdən istifadə etməklə vahid sahədən yüksək və bol məhsul götürüb ərzaq proqramının yerinə yetirilməsinə öz töhfəmizi verməklə illərboyu yaradılmış təsərrüfatçılıq ənənələrini yaşatmış olarıq.

**Həsən ƏMRAHOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

### *İtmişdir*

Əhmədov Elşən Mahmud oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, 21-ci məhəllə, 3/18$^{A}$ ünvanında yaşayan Mahmudov Uğur Mircəmil oğlunun adına olan 10401300627 reyestr nömrəli Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış və plan-ölçü itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Bulqan kənd sakini Abdinov İbrahim Cahangir oğlunun adına verilmiş JN-1361$^{A}$ inventar nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 568